# Özünəməxsusluğu ilə seçilən musiqi bayramı



## Möhtəşəm kamera musiqisi axşamı



(Əvvəli 4-cü səhifədə).

tin birinci hissəsində tamaşaçılar dünya şöhrətli pianoçu Oksana Yablonskaya, violin ifaçısı Janna Qandelman, pianoçu Murad Adıgözəlzadə və XI Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, məşhur violonçel ifaçısı Dmitri Yablonskinin ifasında F.Mendelson və İ.Bramsın əsərlərini dinləyiblər.

Konsertin ikinci hissəsində Türkiyənin "Mirakulum" triosu geniş proqramla çıxış edib.

Konsertdə D.Şostakoviçin, G.Svirdovun, Q.Qarayevin, A. Piazollanın, İ.Mirzəyevin və O. Balcının əsərləri səsləndirilib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## XI Qəbələ Beynəlxalq Musiqi Festivalı uğurla başa çatıb

### *Ənənəyə çevrilən festival öz möhtəşəmliyi ilə musiqi dünyasının diqqətini bir daha Qəbələyə cəlb etdi*

Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə keçirilən XI Qəbələ Beynəlxalq Musiqi Festivalı avqustun 5-də uğurla başa çatıb. İyulun 31-də başlanan və altı gün davam edən musiqi bayramında Rusiya, İsrail, ABŞ, İtaliya, İsveçrə, Ukrayna, Özbəkistan, Litva, Çin və Türkiyədən dünya şöhrətli dirijorlar, görkəmli musiqiçilər, orkestrlər, həmçinin Azərbaycanın tanınmış musiqi kollektivləri iştirak ediblər.




Avqustun 5-də axşam Mədəniyyət Mərkəzində XI Qəbələ Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimi və yekun konserti olub. Mərasimdə festivalın təşkilatçı qurumlarının təmsilçiləri, rayon rəhbərliyi, tanınmış musiqiçilər, musiqisevərlər və şəhərin qonaqları iştirak ediblər.

Bağlanış mərasimində "Kiyev virtuozları" simfonik orkestrinin müşayiəti ilə tamaşaçılara "Viva opera" konsert proqramı təqdim olunub.

İtaliyalı musiqiçi Alvize Kazellatinin dirijorluğu ilə keçən konsertdə C.Verdinin, C.Rossininin, P.Sorozabalın, Ş.Qunenin, E.-Kornqoldun, C.Puççininin əsərləri ifa edilib.

Solistlər Mariya Buynosova (Rusiya), Modestas Sedleviçius (Litva) və Umid İsrailovun (Özbəkistan) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Konsertin sonunda bütün solistlər birlikdə C.Verdinin "Traviata" operasından "Brindisi" ifa ediblər.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən bu festival bir daha təsdiqləyir ki, Azərbaycan Qərb ilə Şərqin mədəni dəyərlərini eyni dərəcədə, həm də çox mükəmməl formada təqdim etməyi bacaran nadir məkandır.

Nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalı da mədəniyyətlərarası dialoqa böyük töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır.

Şən notlarla başa çatan XI Qəbələ Beynəlxalq Musiqi Festivalı şübhəsiz ki, musiqisevərlərin zövqünün formalaşdırılmasına, dünyanın və Azərbaycanın musiqi ənənələrinin tanınmasına böyük töhfələr verəcək.



**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Qəbələ sosial-iqtisadi tərəqqi yolunda inamla irəliləyir

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları! Xanımlar və cənablar!**

Bildiyiniz kimi iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilmişdir.

Müşavirədə bu ilin ötən dövrü ərzində ölkəmizin uğurla və hərtərəfli inkişaf etdiyini, bütün sahələrdə dinamik inkişafın təmin edildiyini deyən möhtərəm cənab Prezident iqtisadi göstəricilərimizin müsbət olduğunu, qarşıya qoyulan vəzifələrin icra olunduğunu, ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin həyata keçirildiyini, ümumi iqtisadi vəziyyətin çox müsbət olduğunu bildirmişdir.

Dövlətimizin başçısı müşavirədə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının artdığını vurğulamışdır.

Qoyulan investisiyaların, aparılan islahatların, verilən subsidiyaların, kənd təsərrüfatına elmi yanaşmanın öz nəticəsini verdiyini qeyd edən dövlətimizin başçısı bu sahənin gələcəkdə də dayanaqlı inkişaf edəcəyinə əminliyini bildirmişdir.

İlin ötən dövründə ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulduğunu, bunun böyük hissəsinin qeyri-neft sektorunun payına düşdüyünü deyən cənab İlham Əliyev ilin əvvəlindən böyük sosial paketin təsdiqləndiyini və əhalinin rifahının, yaşayış səviyyəsinin daim diqqət mərkəzində saxlanıldığını demişdir.

Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafına həsr olunan dördüncü Dövlət Proqramının qəbul olunduğunu vurğulayan dövlətimizin başçısı həm elektrik enerjisi, həm qazlaşdırma, həm də içməli su sahələrində gözəl nəticələrin əldə edildiyini diqqətə çatdırmışdır.

Müşavirədə yol infrastrukturu ilə bağlı görülən işlərdən danışan möhtərəm cənab Prezident büdcə daxilolmalarının, eyni zamanda, valyuta ehtiyatlarının artdığını, manatın məzənnəsinin sabit qaldığını diqqətə çatdırmışdır.

İlin əvvəlindən 60 min yeni iş yerinin yaradıldığını deyən Prezident İlham Əliyev müşavirədə nağdsız ödənişlərin artırılması ilə bağlı tapşırıqlarını verib, istehlak bazarının daim nəzarətdə saxlanılmasının zəruriliyini qeyd etmişdir.

Dövlətimizin başçısı küçələrin işıqlandırılması, məişət tullantılarının idarə olunması, şəhərətrafı dəmiryolu xəttinin çəkilişi, inşaat sektorunun canlandırılması istiqamətlərində görülməsi vacib olan işlərdən danışmış, ölkəmizin innovasiyalar, müasir idarətmə yolu ilə inkişaf etdirilməsinin əhəmiyyətinə toxunmuşdur.

Cənab İlham Əliyev icra edilən layihələrdən söz açarkən kommunal təsərrüfatın yeniləndiyini, nəqliyyatın müasirləşdiyini bildirib, paytaxtımızın və bölgələrin abadlaşması və gözəlləşməsi üçün böyük işlərin görüldüyünü, yeni istirahət zonalarının yaradıldığını vurğulamışdır.

Müşavirədəki nitqində "Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən dövlətimizin başçısı ilin sonunadək nəzərdə tutulan bütün vəzifələrin icra ediləcəyinə əminliyini bildirmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

2019-cu ilin birinci yarımili ölkəmizdə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaddaqalan olmuşdur. Bu ilin 6 ayı ərzində rayonda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 103.628,2 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin altı ayı ilə müqayisədə ümumi məhsul buraxılışı 3.612,8 min manat, yaxud 2,4 faiz artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı kənd təsərrüfatında 3.441,0 min manat, yaxud 14,6 faiz, nəqliyyat və anbar təsərrüfatında 528,7 min manat, yaxud 29,0 faiz, informasiya və rabitədə 27,5 min manat, yaxud 4,8 faiz, ticarətdə 5.385,0 min manat, yaxud 24,2 faiz artmış, tikintidə 3.151,2 min manat, yaxud 12,6 faiz, sənayedə 2.618,2 min manat, yaxud 9,8 faiz azalmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 967,2 manat olmuşdur.

Yarım il ərzində sənaye müəssisələrində çalışan işçilərin orta aylıq nominal əmək haqqı 487,4 manat təşkil etmişdir.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 21.442,4 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 20.530,0 min manat olmuşdur.

2003-cü ilin oktyabr ayından 1 iyul 2019-cu ilədək 17.697-si daimi olmaqla, 19.495 yeni iş yeri açılmışdır. Bu ilin altı ayı ərzində açılmış 854 iş yerinin hamısı daimi iş yeridir.

6 ay ərzində Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 1.090 nəfərdən 540 nəfəri münasib işlə təmin edilmişdir.

İşsiz və işaxtaran vətəndaşların daimi və müvəqqəti məşğulluğunun

(Ardı 6-cı səhifədə).